# Dəfn olunmuş ATƏT mexanizmləri

## Minsk qrupu və təşkilatın digər lazımsız strukturları rəsmi qaydada ləğv edilməlidir

Minsk qrupu Vətən müharibəsinə qədər keçmiş Qarabağ probleminin həlli ilə bağlı bir iş görmədi və yaxud görmək istəmədi. Və 44 günlük müharibədə Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda baş verən proseslər, Fransanın Azərbaycanın ərazi bütövlüyünü qəbul etməməsi göstərdi ki, Minsk qrupu, əslində, problemin həlli deyil, dondurulması üçün çalışıb. Bu məkrli fəaliyyəti ortaya qoyanlar düşünüblər ki, zaman keçdikcə Azərbaycan reallıqla barışmalı olacaq. Azərbaycan isə nəinki reallıqla barışdı, torpaqlarını güc yolu ilə azad etməklə elə Minsk qrupunu da tarixin arxivinə göndərdi. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "ATƏT 1992-ci ildə Minsk qrupunu təsis etdi və o, bu münaqişənin həll yolunu tapmalı idi. Yəni işğala son qoyulmalı idi. Əksinə, Minsk qrupu bu münaqişənin əbədi olmasını istəyənlərin əlində alətə çevrildi. Bu gün Azərbaycanın münaqişəni həll etməsindən, işğala son qoymasından, özünün ərazi bütövlüyünü hərbi-siyasi yollarla bərpa etməsindən sonra Minsk qrupuna ehtiyac yoxdur..."

→ 11

Azərbaycan, № 38.- S.1, 11.

20 fevral 2024-cü il

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

# Dəfn olunmuş ATƏT mexanizmləri

## Minsk qrupu və təşkilatın digər lazımsız strukturları rəsmi qaydada ləğv edilməlidir

Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsinin ortaya qoyduğu reallıqlardan biri də ATƏT-in Minsk qrupunun öz fəaliyyətini dayandırması oldu. Başqa cür desək, bu bədnam formatı Azərbaycan öz qələbəsi ilə faktiki olaraq tarixin arxivinə göndərdi. Keçmiş qrupun keçmiş həmsədrlərinin də bu reallığı qəbul etməkdən başqa yolları qalmadı.



Artıq həm Minsk qrupu, həm Yüksək Səviyyəli Planlaşdırma Komitəsi, o cümlədən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi kimi strukturlar keçmişin qalıqlarıdır və onlar rəsmi qaydada da ləğv edilməlidir. ATƏT-in fəaliyyətdə olan sədri İan Borqun müraciətinə əsasən Münxendə onunla görüşən Prezident İlham Əliyev bu məsələni qaldıraraq, tamamilə fəaliyyətsiz olan bu strukturların artıq rəsmi qaydada ləğv edilməsinin vacibliyini bildirdi və çox düzgün olaraq ATƏT çərçivəsində büdcənin daha məqsədyönlü və vacib layihələrə istiqamətləndirilməsinin önəmini qeyd etdi.

Bir daha xatırladaq ki, tarixi 1992-ci ildən başlayan ATƏT-in Minsk qrupu öz fəaliyyətində beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanırdı. Hansı ki həmin normalar və prinsiplər Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğaldan qeyd-şərtsiz azad olunmasını tələb edirdi. Üstəlik, BMT-nin məlum qətnamələrini də bura əlavə edəndə Minsk qrupunun öz missiyasını ədalətli şəkildə başa çatdıra bilməsi üçün nə qədər güclü hüquqi bazanın olduğu görünürdü.

Buna baxmayaraq, Minsk qrupu Vətən müharibəsinə qədər keçmiş Qarabağ probleminin həlli ilə bağlı bir iş görmədi və yaxud görmək istəmədi. Və 44 günlük müharibədə Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda baş verən proseslər, Fransanın Azərbaycanın ərazi bütövlüyünü qəbul etməməsi göstərdi ki, Minsk qrupu, əslində, problemin həlli deyil, dondurulması üçün çalışıb. Bu məkrli fəaliyyəti ortaya qoyanlar düşünüblər ki, zaman keçdikcə Azərbaycan reallıqla barışmalı olacaq. Azərbaycan isə nəinki reallıqla barışdı, torpaqlarını güc yolu ilə azad etməklə elə Minsk qrupunu da tarixin arxivinə göndərdi. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "ATƏT 1992-ci ildə Minsk qrupunu təsis etdi və o, bu münaqişənin həll yolunu tapmalı idi. Yəni işğala son qoyulmalı idi. Əksinə, Minsk qrupu bu münaqişənin əbədi olmasını istəyənlərin əlində alətə çevrildi. Bu gün Azərbaycanın münaqişəni həll etməsindən, işğala son qoymasından, özünün ərazi bütövlüyünü hərbi-siyasi yollarla bərpa etməsindən sonra Minsk qrupuna ehtiyac yoxdur. Biz Minsk qrupuna artıq əlvida demişik".

Fransa və Ermənistan Minsk qrupunun fəaliyyətinin yenidən canlandırılması ilə bağlı müxtəlif cəhdlər və təşəbbüslər göstərsələr də, Azərbaycan onların hamısının qarşısını aldı. Və Bakının bu istiqamətdəki qətiyyətinin nəticəsidir ki, Azərbaycanla Ermənistan arasındakı münasibətlərin normallaşdırılması ilə bağlı danışıqlarda hər hansı vasitəçi və üçüncü tərəf iştirak edə bilməz.

ATƏT-in Yüksək Səviyyəli Planlaşdırma Qrupu isə 1994-cü ildə yaradılıb və məqsədi Qarabağ münaqişəsinin tənzimlənməsi zamanı durğunluq yaranarsa, onu aradan qaldırmaq olub. Qarabağ münaqişəsi isə artıq yoxdur və keçmişin qalığı olan bu mexanizm rəsmən ləğv olunmalıdır.

ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anjey Kaspşikin xəbəri isə son olaraq ötən il Ermənistandan gəlib. İllər boyu respublikamıza turist kimi gəlib getmiş bu adam özü də bilir ki, ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsini Azərbaycanda nə gözləyən, nə də onunla görüşmək istəyən var.

Azərbaycanın torpaqlarını işğaldan azad etməsi ATƏT-in adıçəkilən bütün bu mexanizmlərinin fəaliyyətinə faktiki son qoyub. ATƏT isə gecikmədən dəfn olunmuş strukturlarının rəsmən ləğvini elan etməlidir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*